# 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar qeydə alınmış namizədlərin təşviqat aparması məqsədilə Qəbələ şəhərində və rayonun digər yaşayış məntəqələrində vətəndaşların sərbəst toplaşması və təşviqat işinin aparılması üçün yerlərin ayrılması barədə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının

# SƏRƏNCAMI

"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 85 və 86-cı maddələrinə əsasən, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8 maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Qəbələ şəhərində, rayonun qəsəbə və kəndlərində vətəndaşların sərbəst toplaşması və təşviqat işinin aparılması üçün ayrılmış yerlər haqqında rayon icra hakimiyyəti başçısının şəhər, qəsəbə və kənd inzibati ərazi dairələri üzrə nümayəndələrinin təqdim etdiyi məlumata uyğun hazırlanmış siyahı təsdiq olunsun (siyahı əlavə olunur).

2. Namizədlərin təşviqat materialları seçki məntəqələrinin yaxınlığında quraşdırılmış təşviqat lövhələrində yerləşdirilsin.

3. Sərəncam "Qəbələ" qəzetində dərc olunsun.

4. Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Səbuhi Abdullayev,**
**Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı.**

*Qəbələ şəhəri,*
*13 noyabr 2019-cu il.*

**Qəbələ Rayon İcra Hakimiyyəti başçısının 13 noyabr 2019-cu il tarixli 93 nömrəli sərəncamı ilə təsdiq edilmişdir**

## "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 85 və 86-cı maddələrinə uyğun olaraq 23 dekabr tarixdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Qəbələ rayonunun şəhər, qəsəbə və kəndlərində müəyyən edilmiş açıq və qapalı yerlər barədə

## MƏLUMAT

| Qapalı yerlər | | | Açıq yerlər | | |
|---|---|---|---|---|---|
| S/N | Ünvanı | Müəyyən edilmiş yer | S/N | Ünvanı | Müəyyən edilmiş yer |
| 1 | Qəbələ Mədəniyyət Mərkəzi | 400 | 1 | Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin stadionu | 700-1100 |
| 2 | Bum qəsəbə tam orta məktəbin akt zalı | 80 | 2 | Bum qəsəbəsindəki mərkəzi meydan | 1000 |
| 3 | Vəndam qəsəbə 1 saylı tam orta məktəbin akt zalı | 200 | 3 | Vəndam qəsəbə mədəniyyət evinin həyəti | 1100 |
| 4 | Nic qəsəbə 2 saylı tam orta məktəbin akt zalı | 200 | 4 | Nic qəsəbə mədəniyyət evinin həyəti | 1000 |
| 5 | Tikanlı kənd mədəniyyət evi | 110 | 5 | Tikanlı kənd mədəniyyət evinin həyəti | 800 |
| 6 | Mıxlıqovaq kənd klubu | 80 | 6 | Mıxlıqovaq kənd klubunun həyəti | 900 |
| 7 | Mirzəbəyli kənd tam orta məktəbin akt zalı | 55 | 7 | Mirzəbəyli kənddəki mərkəzi meydan | 500 |
| 8 | Çuxur Qəbələ kənd mədəniyyət evi | 120 | 8 | Çuxur Qəbələ kənd mədəniyyət evinin həyəti | 300 |
| 9 | Quşlar kənd klubu | 70 | 9 | Quşlar kənd klubunun həyəti | 600 |
| 10 | Hacıalılı kənd mədəniyyət evi | 100 | 10 | Hacıalılı kənd mədəniyyət evinin həyəti | 900 |
| 11 | Kürd kənd mədəniyyət evi | 80 | 11 | Kürd kənd mədəniyyət evinin həyəti | 800 |
| 12 | Bayramkoxalı kənd mədəniyyət evi | 80 | 12 | Bayramkoxalı kənd mədəniyyət evinin həyəti | 700 |
| 13 | Zalam kənd mədəniyyət evi | 50 | 13 | Zalam kənd mədəniyyət evinin həyəti | 600 |
| 14 | Məlikli kənd tam orta məktəbin akt zalı | 50 | 14 | Məlikli kənd tam orta məktəbin həyəti | 350 |
| 15 | Qəmərvan kənd mədəniyyət evi | 100 | 15 | Qəmərvan kənd mədəniyyət evinin həyəti | 750 |
| 16 | Böyük Pirəli kənd mədəniyyət evi | 50 | 16 | Böyük Pirəli kənd mədəniyyət evinin həyəti | 650 |
| 17 | Cığatelli kənd tam orta məktəbin akt zalı | 60 | 17 | Cığatelli kənd tam orta məktəbin həyəti | 550 |
| 18 | Tüntül kənd mədəniyyət evi | 140 | 18 | Tüntül kənd mədəniyyət evinin həyəti | 1100 |
| 19 | Yenikənd kənd tam orta məktəbin akt zalı | 60 | 19 | Yenikənd kənd tam orta məktəbin həyəti | 400 |
| 20 | Əmirvan kənd klubu | 40 | 20 | Əmirvan kənd klubunun həyəti | 500 |
| 21 | Zarağan kənd kənd tam orta məktəbin akt zalı | 140 | 21 | Zarağan kənd kənd tam orta məktəbin həyəti | 500 |
| 22 | Bunud kənd klubu | 40 | 22 | Bunud kənd klubunun həyəti | 600 |
| 23 | Laza kənd klubu | 30 | 23 | Laza kənd klubunun həyəti | 300 |
| 24 | Nohurqışlaq kənd kənd tam orta məktəbin akt zalı | 100 | 24 | Nohurqışlaq kənd stadionu | 700 |
| 25 | Soltannuxa kənd kənd tam orta məktəbin akt zalı | 40 | 25 | Soltannuxa kənd klubunun həyəti | 500 |
| 26 | Aydınqışlaq kənd kənd tam orta məktəbin akt zalı | 40 | 26 | Aydınqışlaq kəndinin mərkəzindəki meydan | 400 |
| 27 | Böyük Əmili kənd tam orta məktəbin akt zalı | 50 | 27 | Böyük Əmili kəndinin mərkəzindəki meydan | 350 |
| 28 | Yemişanlı kəndi tam orta məktəbin akt zalı | 100 | 28 | Yemişanlı kəndinin mərkəzindəki meydan | 250 |
| 29 | Yeni Dizaxlı kənd tam orta məktəbinin akt zalı | 80 | 29 | Yeni Dizaxlı kənd mədəniyyət evinin həyəti | 500 |

# "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyaları ənənə halı alıb

## "Ölkəmizi tanıyaq" tur-aksiyasının iştirakçıları ilə görüş

***Artıq altıncı ildir ki, Azərbaycanın ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısı İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb.***

***Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündəngünə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.***

Noyabrın 12-də Heydər Əliyev Mərkəzində Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Ölkəmizi tanıyaq" tur-aksiya çərçivəsində iştirak edəcək məktəblilər və onları müşayiət edəcək şəxslərlə görüş keçirilib.

Tədbirdə rayon ictimaiyyətinin nünayəndələri, müəllimlər, məktəblilər və onların valideynlə-

**(Ardı 4-cü səhifədə).**

